Hörmətli cənab Prezident.

Qarabağ uğrunda göstərdiyiniz şücaətə, torpaqlarımızın yenidən xalqımıza qaytarılması yolunda verdiyiniz əməklərə görə Sizə minnətdarlığımızı bildiririk. Azərbaycanın gündən-günə inkişaf etməsi, dünya dövlətləri arasında siyasi nüfuzunun artması istiqamətində çox böyük işlər görülür. Bu yolda Sizə əzm arzu edirik. Qarabağın azad edilməsi uğrunda gedən döyüşlər zamanı ölkəmizin hər yerindən igid oğullarımız cəbhəyə yollandılar. Astara rayonundan da yüzlərlə gəncimiz 44 günlük Vətən Müharibəsində öz qəhrəmanlıqlarını göstərmişlər. Müəllim olaraq çalışdığım Astara rayonu Təngərüd kənd tam orta məktəbinin məzunları da bu müharibədə iştirak etmiş, zəfər yolunda canını və qanını əsirgəməmişlər. Birinci Qarabağ müharibəsində Mahir Əhmədov, İkinci Qarabağ müharibəsində hərbi həkim Nurlan Fərəməzov şəhidlik zirvəsinə ucalmışdır. Vətən sağ olsun!

Ümumiyyətlə məktəbimiz hər il qəbul imtahanlarında yüksək nəticə göstərir. Təbii ki, bu bizim üçün sevindirici haldır. Şagirdlərimizin uğurunda mənim də müəyyən qədər zəhmətim və əməyim vardır. Bütün bunları nəzərə alaraq məni “Əməkdar müəllim” adına layiq gördüyünüz üçün məktəbimizin müəllim kollektivi adından Sizə dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, zəfərimizin birinci ildönümünün yaxınlaşdığı bu günlərdə bizə yenidən tarixi anlar yaşatmaqla sevincimizi daha da artırırsınız. Qarabağımızı və ümumiyyətlə, Azərbaycanımızı cənnətə çevirmək üçün həyata keçirməkdə olduğunuz bütün işlərdə Sizə tükənməz enerji və uğur arzulayırıq.

Allah Sizi qorusun!

Yaşasın Qarabağ!

Yaşasın Azərbaycan!

Hörmətlə,

Zayidova Maral Zakir qızı

Astara rayon Təngərüd kənd tam orta məktəbin əməkdar müəllimi

Azərbaycan Respublikası, Astara rayonu, Təngərüd kəndi.